# GÜNDOĞAR

Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 31 İYUL 2024 - cü il, № 7(68069)


***Prezident İlham Əliyev: "Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir!"***




## 14 iyul 1969 - cu il tarixindən 55 il ötür. Ulu Öndər ideyaları ən parlaq səhifələrlə davam edir

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".**

## Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər.

**Prezident İlham Əliyevin çıxışı**

-Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana, Qarabağa "Xoş gəlmisiniz!".

Türk Dövlətləri Təşkilatının ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsümü dəstəklədiyiniz və dəvətimizi qəbul edərək Şuşa şəhərinə gəldiyiniz üçün təşəkkür edirəm.

ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır.

Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan




kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir.

Sərəncamımla 2021-ci ildə Şuşa şəhəri "Azərbaycanın mədəniyyət paytaxtı" elan olundu. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda "Şuşa İli" elan edilmişdir. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı", ICESCO tərəfindən isə 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır.

**Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq.**

2

## Şuşada 2-ci Qlobal Media Forumu

İyulun 20-də **"Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun** açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda iştirak edib və sualları cavablandırıb. Müxtəlif sualların cavablandırılması maraq yaratmışdır.

Yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzusunda sualı cavablandırarkən Prezident İlham Əliyev bildirmişdir ki, "Təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni, faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər




ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir.

Biz etnik təmizləmənin qurbanı olmuşuq, işğalın qurbanı olmuşuq. Bu hal 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq.

2

# Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri - rəsmi Zirvə görüşü keçirilib

1 Hörmətli həmkarlar, bu gün Qarabağ və Şərqi Zəngəzurda “Böyük Qayıdış” Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

“Böyük Qayıdış” Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər.

Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm.

Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür.

Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir.

Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, Fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir.

Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bildiyiniz kimi, bu il Azərbaycan COP29 konfransına ev sahibliyi edəcək. Fürsətdən istifadə edərək sizin hər birinizi bir daha COP29-a dəvət edirəm. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək.

Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda, Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir...

# Şuşada 2-ci Qlobal Media Forumu

1 ABŞ 1992-ci ildə Azərbaycana qarşı saksiyalar tətbiq edibdir. Biz işğalın və təcavüzün qurbanı olmuşuq və o zaman konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Yəni, bu, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır. O zaman bizim beynəlxalq media şəbəkələrinə o qədər də çıxış imkanımız yox idi. Biz müstəqilliyini yeni bərpa etmiş ölkə idik və biz ciddi səylər göstərməli idik. Bizə elə gəlirdi ki, mesajımızı çatdıra bilmirik. Biz özümüzü günahlandırırdıq, resurslarımızı səfərbər edirdik, beynəlxalq ictimaiyyəti maarifləndirirdik. Daha sonra biz dərk etdik ki, bir çox insanlar, müxtəlif fərdlər bizim mesajları eşitmək istəmir, onlar vəziyyəti tamamilə fərqli şəkildə təqdim etmək istəyir. Ona görə də bu məsələyə yanaşmanın ən yaxşı yolu budur: 30 il müstəqil olan ölkə nə edə bilər? Sizin kimi şəxsləri Bakıya və bölgələrimizə dəvət etmək və bizim nə işlər gördüyümüzü, planlarımızı təqdim etmək, gözləntilərimizi sizə çatdırmaqdır ki, biz dövlət quruculuğunda nələrə nail olmuşuq. Məhz bu, ən səmərəli üsuldur. Biz uzun illərdir üzləşdiyimizi bu gün görürük ki, Amerika Prezidenti də buna məruz qalıbdır. Prezident Tramp “Vaşinqton Post”u və “Nyu-York Tayms”ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Mən tamamilə onunla razıyam. Mən təkcə bu məsələdə deyil, onun bir çox bəyanatları ilə razıyam. Bu gün ABŞ Prezidenti məhz media tərəfindən hücumların qurbanıdır, ictimai rəyin manipulyasiyasının qurbanıdır. Elə, sadəcə, bunu görəndə biz özümüzü bir az rahat hesab edə bilərik. Yəni, bu gün diqqət Azərbaycandan yayınıbdır. Əlbəttə, biz çox arzu edirik ki, media obyektiv olsun, hər kəs obyektiv olsun. Ancaq medianın xüsusi məsuliyyəti var. Çünki medianın mesajları, məsələni işıqlandırması bir çox insanların həyatına təsir edir”...

# ULU ÖNDƏR YADİGARI
# N E F T Ç A L A



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 mart 2020-ci il tarixli Sərəncamı ilə Mirhəsən Mirheydər oğlu Seyidov Neftçala rayonunu İcra Başçısı təyin edildiyi gündən dörd ildən artıq vaxt keçir. Mirhəsən müəllim rayonumuzun tarixində ilk ən gənc İcra Başçısı olmaqla onun tarixində ən çətin günlərin öhdəsindən bacarıqla gələn, yerinə yetirən rəhbər kimi qalacaqdır. Onun rayona rəhbərliyinin ilk günlərindən bütün dünyada geniş miqyasda yayılan COVİD 19 pandemiyasına qarşı mübarizə respublikamızda da gücləndirildi. Heç keçmədi ki, qapalı şəraitdə işləmək məcburiyyəti ölkəmizin hər yerində tətbiq edildi. Bu çətin günlərin öhdəsindən gəlmək heç də asan deyildir. Rayon ilə ilk tanışlığın məhz belə ağır vəziyyətdə başlanması payızda daha çətin bir imtahanla sınağa çəkdi. Azərbaycan dövləti torpaqlarımızın azadlığı yolunda xalqımızın yurd həsrətinə son qoymaq üçün Vətən müharibəsinə başladı. Bu günlər hər bir vətəndaşımızın həyatında çətinliyi ilə iz qoymuşdur. Belə bir şəraitdə rəhbərlik etmək, daha doğrusu verilmiş etimadı layiqincə doğrulda bilmək cənab Başçının gənc ömür yollarında əsl sınaq dövrü kimi unudulmayacaqdır. Onun keçdiyi məsuliyyətli fəaliyyət pillləkənləri bacarıq və səriştə, diqqət və səmimiyyət ilə yadda qalacaqdır.

Neftçala rayonunda İcra Başçısı kimi fəaliyyətə başlayana qədər Mirhəsən Seyidov bir çox vəzifələrdə çalışmışdır. Hər bir vəzifə isə öz məsuliyyəti ilə onun uğur pilləknələrindən inamla keçə bilməsinə şərait yaratmışdır.

Mirhəsən Mirheydər oğlu Seyidov 15 iyul 1989-cu ildə Sumqayıt şəhərində anadan olmuş, 1995-ci ildən etibarən 287 saylı “Zəkalar” liseyində təhsil almışdır. 2006-cı ildə liseyi bitirərək Azərbaycan Universitetinin “ Vergi və Vergitutma” fakültəsinə yüksək nəticələrlə daxil olmuşdur. 2010-cu ildə ali təhsilin bakalavr pilləsini, 2012 - 2014-cü illərdə Azərbycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Biznes MBI magistr dərəcəsini qazanmışdır. 2010 - 2011- ci illər ərzində həqiqi hərbi xidməti Azərbaycan Respubluikası Dövlət Sərhəd Xidmətinin “N” saylı hərbi hissəsində başa vurmuşdur.

İctimai fəaliyyətinə 2005-ci il iyun ayında Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasında başlamış, sentyabrdan etibarən isə Gənclər üçün resurs mərkəzlərində könüllü olaraq fəaliyyət göstərmişdir. Könüllülük haqqında soruşduqda Mirhəsən müəllim belə deyir:

***“Könüllülük fəaliyyəti çox nəcib işdir. Həqiqətən də, düşünürəm ki, könüllülük fəaliyyətinin reallıqda bu gün parametrləri sırf könüllülər üçün düzgün istiqamətləndirilmişdir. Könüllülük təbliğ olunduqca cəmiyyətdə bu işə daha çox gənclər cəlb olunacaqdır. Könüllülük inkişaf deməkdir, bir şəxsin dayanmadan, durmdan yeni təcrübə əldə etməsi deməkdir”.***

2006-cı il yanvar ayından etibarən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (ARGTMŞ)–da Regionlarla iş üzrə departament sədri vəzifəsini daşımışdır və region layihələrinin idarə olunması, yerli gənclər və idman idarələri ilə iş, yerli təhsil idarələri-universitet və məktəblərdə layihələrin keçirilməsi, region hesabatların hazırlanması kimi işləri həyata keçirmişdir. 2007-ci il iyul ayından eyni təşkilatda Layihələrlə iş üzrə departament sədri kimi fəaliyyət göstərmişdir. 2009 - cu il may ayından Dünya Türk Gəncləri Birliyində Azərbaycan nümayəndə heyətinin rəhbəri seçilmişdir. Dekabr ayından etibarən isə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (ARGTMŞ) - da baş katib müavini olaraq ictimai fəaliyyətinə davam etmişdir. 2012-ci ilin fevral ayından başlayaraq Avroviziya Mahnı Müsabiqəsinin Azərbaycandakı rəsmi Fan Klubuna rəhbərlik edib. 2012 - ci ilin May ayında Azərbaycanda Avropa Hərəkatında İdarə Heyətinin üzvü olmuş, 2012-ci il İyul ayında Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasında sədr müavini vəzifəsində çalışıb. 2014 - cü il 27 iyun tarixindən etibarən isə "İRƏLİ" İctimai Birliyinin sədri təyin edilib. 2015-ci il 29 may tarixində Azərbaycan Respublikasının Milli Məclisinin

3

# İDEYANIN İŞIĞI, QƏTİYYƏTİN İZİNDƏ...

## 14 iyul 1969 - cu il tarixindən 55 il ötür

Neftçala rayonunda Ulu Öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq **"14 İyul 1969-cu il: Qüdrətli Azərbaycanımızın uğurlu təməl tarixi"** mövzusunda görüş keçirilib. Görüşdə Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, İnzibati Ərazi Dairəsi üzrə nümayəndələr, bələdiyyə sədrləri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, rayon ağsaqqalları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Görüş iştirakçıları tərəfindən Neftçala şəhərində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılan əzəmətli heykəli ziyarət olunub, önünə gül dəstələri düzülüb, Ümummilli Liderin əziz xatirəsi ehtiramla yad edilib.

Görüşdə çıxış edən natiqlər- təqaüddə olan dövlət qulluqçusu Oktay Kərimov, tarixçi araşdırmaçı Firdovsi Tağıyev, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva, Şirvan- Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayonu üzrə nümayəndəsi Gülər Mirzəyeva və Vətən müharibəsi iştirakçısı, təhsil işçisi Vüqar Qələşov XX yüzilliyin 60-cı illərində Azərbaycanın sosial-iqtisadi həyatında dərin və uzunmüddətli böhranın bürüdüyü, olduqca mürəkkəb, ağır bir şəraitdə, respublikamızın iqtisadi göstəricilərinə görə keçmiş Sovet




İttifaqı respublikaları arasında sonuncu yerdə olduğu bir şəraitdə, 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra az zamanda dəyişməsini qeyd etdilər. Tarixin yaddaşında qalan bu gün Ulu Öndər Azərbaycanda rəhbərliyə gələrək Azərbaycanı ağır vəziyyətdən çıxardı. 1969-1982-ci illərdə Azərbaycanda ən qabaqcıl texnologiya istehsalı, elmin qabaqcıl nailiyyətlərinin istehsalata tətbiqi, xalq təsərrüfatının dinamik inkişafı, mədəniyyətin çiçəklənməsi və s. nailiyyətləri göstərmək olar ki, həmin illərdə Ulu Öndər Heydər Əliyevin atdığı hər addımda Azərbaycanın gələcəyini düşünməsinin şahidi oluruq. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin milli dövlətçiliyimizin ideya və təməlində dayanan siyasətinin nəticəsidir. Məhz bu siyasət Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək 44 günlük Vətən müharibəsində parlaq Zəfərin əldə olunmasında aparıcı mövqeyə malik olması haqqında görüş iştirakçılarını məlumatlandırdılar.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov bildirdi ki, ölkəmizin çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri vardır. Ulu Öndərin Azərbaycanda 55 il öncə birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Məhz buna görə Ümummilli Lider Heydər Əliyevin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə özünəməxsus yerə malikdir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün I mərhələsi (1969-1982-ci illər)

→ 4

# ULU ÖNDƏR YADİGARI NEFTÇALA

2 ← "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 17.2–17.4-cü və 17.6-cı maddələrinə əsasən İctimai TV (Azərbaycan) 6 il müddətinə Yayım Şurasının üzvü seçilmişdir. 2007-ci ildən başlayaraq 35-ə yaxın xarici ölkədə keçirilən beynəlxalq tədbirlərdə, o cümlədən Avropa Parlamenti, Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatlarının Uşaq Fondu (UNICEF), Avropa İttifaqının, Avropa Gənclər Forumu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Avropa Gənclər Fondunun bir çox tədbirlərində Azərbaycanı təmsil edib. "Yodlaşdırılmış duz", "Sağlam həyat tərzi", "Ekoloji maarifləndirmə", "Azərbaycan Gənclər Siyasəti" üzrə həmyaşıd təlimçi kimi fəaliyyət göstərib.

Mirhəsən Seyidov "2 fevral 2017- ci il Gənclər Günü" münasibətilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən ictimai fəaliyyət sahəsində fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən mükafatlandırılmışdır. 2017-ci il 4 mart tarixində Prezident İlham Əliyev tərəfindən verilmiş sərəncama əsasən Azərbaycan Gənclər Fondunun Müşahidə Şurasının üzvü təyin edilmişdir. 2017-ci il 21 sentyabr tarixindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin Müşahidə Şurasının üzvüdür. 2018-ci ilin 8 yanvar tarixindən etibarən Mirhəsən Seyidov Azərbaycan Milli Karate Federasiyasının baş katibi vəzifəsinə, 2019-cu ilin 13 oktyabr tarixindən etibarən Türk Şurası Gənclər Platformasının Prezidenti vəzifəsinə təyin olunmuşdur. 2019 - cu ilin 22 oktyabr tarixindən etibarən isə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi İctimai Şura üzvü vəzifəsinə təyin olunub. 2020- ci ildə Azərbaycan Respublikası parlament seçkilərində deputatlığa namizəd olub. Seçkilərin ardınca Facebook profili vasitəsilə "Artıq bir neçə məntəqənin nəticəsinin ləğv olunduğunu nəzərə alaraq, ədalətli qərar olacağına ümid edirik" açıqlamasını edib.

2020 - ci il 5 mart tarixində Prezident İlham Əliyev tərəfindən verilmiş sərəncama əsasən, Mirhəsən Mirheydər oğlu Seyidov Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı təyin edilmişdir. Rayon ərazisi 1,45 min kv.km., 52 ərazi vahidindən ibarətdir (1 şəhər, 3 qəsəbə və 48 kənd), əhalisinin ümumi sayı 86,8 min nəfər, ondan şəhər əhalisi 22,1 min nəfər olan Neftçala rayonu bu gün respublikamızın inkişaf etməkdə olan inzibati əraziləri sırasındadır. Təsadüfi deyildir ki, 1979-cu ildə 30 may tarixində, hələ rayonumuzun sonuncu müstəqilliyinin 6-cı ilində Ulu Öndər Neftçalaya səfər edəndə onun gələcək inkişafını uzaqgörənliklə qeyd etmişdir. ***"Mən Neftçalanın gənc bir rayon kimi gələcək inkişafına inanıram!"*** - deyərək rayonun zəhmətsevər insanlarına ruh vermişdir. İnam olan yerdə daim yüksəliş də olur. Bu gün Neftçalanın tarixi inkişafından danışarkən ürəklə qeyd edirik ki, cənab Ali Baş Komandan İlham Əliyev ilk dəfə baş nazir olduğu 2003-cü ildə, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti kimi **5** dəfə rayonumuza səfər etmişdir.**(23.08.2007; 28.05.2014; 24.09.2017; 18.04.2023; 16.01.2024).**Və bu diqqət istər iqtisadiyyatda, istər elmi-mədəni, ictimai işlərin inkişafında, istərsə də, Vətən üçün can fəda edən Qəhrəman Şəhidlərimizin hər bir addımında Vətənə sevgi ilə dəyərləndirilmişdir. Artıq 5-ci ildir ki, cənab Prezidentin etimadını doğruldaraq Neftçala rayonuna rəhbərlik edən Mirhəsən Seyidov rayonda bir neçə böyük, diqqəti cəlb edən layihələrin icrasının reallaşdırılmasında səylə xidmət etmiş, bu sahədə əhali ilə yaxından təmas quraraq, hər bir səyyar görüşlərdə onların rəy və təkliflərini planlaşdıraraq ən vacib işlərin həyata keçməsinə nail ola bilmişdir. Rayonda həyata keçirilən hər iş böyük zəhmətin nəticəsidir. 2003-cü ilə nisbətdə 2022-ci ildə məhsul buraxılışı 2,6 sənaye məhsulunun həcmi 1,7 kənd təsərrüfatı



məhsulunun həcmi 1,4 və tikinti-quraşdırma işlərinin həcmi 13,9 dəfə artmışdır. Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 93,1%-dir; 52 688 ha əkin sahəsinin 65,3%-ni dənli və dənli paxlalı, 17,6%-ni yem, 16,4%-ni texniki və 0,7%-ni kartof, tərəvəz və bostan bitkiləri təşkil edir; pambıq - 1981-ci ildə 43,5 min ton (46,6 sent/ha), 2022-ci ildə 23,8 min ton (27,6 sent/ha), 2023-cü ildə 22,8 min ton istehsal olunmuş və hazırda yığım davam etdirilir; əkin sahələrinin 65,4%-i suvarılır, 34,6%-ni isə dəmyə əkinçiliyi təşkil edir. 13,4 min ha torpaq sahəsinin suvarma suyu ilə təminatı üçün Kür çayında 6 aqreqatlı nasos stansiyası, uzunluğu 24,9 km olan dəmir beton üzlüklü Neftçala magistral kanalının qurğularla birlikdə tikintisi aparılmışdır. 15,7 min ha əkin sahəsinin suvarılmasını təmin edəcək 81,7 km uzunluğunda torpaq məcralı "Akkuşa" kanalının yenidən qurulmasına isə cari ildə başlanılacaqdır; 2003-2023-cü ilin 9 ayı ərzində 21 803 yeni iş yeri açılmışdır; ərazi vahidlərinin 65,4%-i (34) və ev təsərrüfatlarının 90,9%-i (16 655) qazlaşdırılmışdır; ərazi vahidlərinin 44,2%-nin (23) elektrik təsərrüfatı yenilənmişdir; ərazi vahidlərinin 78,8%-i əsaslı təmir olunmuş avtomobil yolları ilə əhatə olunub; Heydər Əliyev Mərkəzi yaradılmış və Ümummilli Liderin abidəsi ucaldılmışdır; Bayraq Meydanı, Olimpiya İdman Kompleksi, Kür çayı sahilində Bulvar Kompleksi, RİH-nin inzibati binası tikilmiş, 145 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası, Tarix-Diyarşünaslıq Muzeyi yenidən qurulmuşdur; "Azerbaijan Fish Farm" MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı Nərə Balıqartırma, "MKT İstehsalat Kommersiya" MMC-nin pambıq emalı və "Azər-Yod" MMC-nin yod istehsalı müəssisələri fəaliyyət göstərir; <u>09.2017-ci il tarixində ölkə başçısının iştirakı ilə Neftçala Sənaye Məhəlləsinin açılış mərasimi keçirilmişdir.</u> 7 iştirakçı fəaliyyətə başlamış, ümumi dəyəri 63,9 mln. manat olmuş, o cümlədən iştirakçılar tərəfindən qoyulmuş investisiya 43,8 mln manat, dövlət dəstəyi 20,1 mln. manat təşkil etmişdir. 145,1 mln. manat həcmində məhsul istehsal edilmiş və 259 yeni iş yeri yaradılmışdır; əlil və şəhid ailələri üçün ümumilikdə 64 mənzilli 3 yaşayış binası, 62 fərdi ev, həmçinin Kür və Araz çaylarının daşması nəticəsində baş vermiş təbii fəlakətin fəsadlarının aradan qaldırılması məqsədilə 1 uşaq bağçası, 42 fərdi ev tikilmiş, 32 evdə bərpa-gücləndirmə işləri aparılmışdır; "Neftçala şəhərinin içməli və tullantı su sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 36 km-lik magistral su kəməri, şəhər ərazisində 150 km-lik içməli su təchizatı şəbəkəsi yaradılmışdır. Yeni yaradılmış infrastruktur hesabına Neftçala şəhəri ilə yanaşı, 39 yaşayış məntəqəsinin də içməli su problemi həll edilmiş, Bankə qəsəbəsində 41 km-lik su təchizatı şəbəkəsi yaradılmış, 38 yaşayış məntəqəsində isə 67 km-lik su xətti çəkilmiş və 6 ədəd əks-osmos tipli su təmizləyici qurğu quraşdırılmışdır. Hazırda Neftçala rayonunun 11 və Salyan rayonunun 6 yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 km-lik su kəmərinin, həcmi 7500 kubmetr olan 1 ədəd su anbarının və 1 ədəd su nasos stansiyasının inşası davam etdirilir. 145 km-lik tullantı su şəbəkəsinin, 8,5 km kanalizasiya kollektorunun, 9 ədəd nasos stansiyasının və tullantı sutəmizləyici qurğunun inşası nəzərdə tutulmuşdur; 51 ümumtəhsil müəssisəsinin 30-da (58,8%) təmir-tikinti işləri aparılmış, o cümlədən 10-u inşa, 5-i əsaslı təmir olunmuş və 15 modul tipli məktəb quraşdırılmışdı. Həyata keçirilən hər bir müsbət nıticəli fəaliyyət rayonda olan rəhbərlik məsuliyyətinin nəticəsidir. Əlbəttə ki, hələ rayonumuzda çox işlərin görülməsi planlaşdırılır. Bu sahədə Neftçala rayon İcra Hakimiyyətinin Başçısı cənab Mirhəsən Seyidov başda olmaqlaolmaqla könlü, ruhu vətənlə olan soydaşlarımıza uğurlar diləyirik.

***B. Niftaliyeva***

# 1 sentyabr - Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar keçiriləcək seçkilərdə hər bir vətəndaşımız fəal olmalıdır!

Neftçala Rayonu İcra Hakimiyyəti Başçısının
"12" iyul 2024-cü il tarixli
"94" nömrəli sərəncamı ilə təsdiq edilmişdir

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 1 sentyabr 2024-cü il tarixdə keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkiləri ilə bağlı toplantı (yığıncaq,mitinq,nümayiş,küçə yürüşü,piket) keçirilməsi üçün müəyyən edilmiş açıq və qapalı yerlər barədə

**SİYAHI**

| Açıq yerlər | | | Qapalı yerlər | | | |
|---|---|---|---|---|---|---|
| Sıra №si | Ünvanı | Tutumu (nəfərlə) | Sıra №si | Ünvanı | Tutumu (nəfərlə) | Qeyd |
| 1 | Nəriman Nərimanov adına Neftçala şəhər stadionu | 10000 | 1 | Neftçala Olimpiya İdman Kompleksi | 767 | |
| | | | 2 | Neftçala şəhəri "Xatimə" şadlıq evi | 200 | |
| 2 | Həsənabad qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi | 3000 | 3 | Həsənabad qəsəbə Şadlıq evi | 150 | |
| 3 | Bankə qəsəbə Mədəniyyət evinin qarşısındakı ərazi | 3000 | 4 | Bankə qəsəbə Mədəniyyət evi | 200 | |
| 4 | "Melioservis" ASC-nin qarşısındakı ərazi | 3000 | 5 | Xıllı qəsəbə "Əfsanə" şadlıq evi | 200 | |
| 5 | Boyat kənd Diyarşünaslıq evinin qarşısındakı ərazi | 1000 | 6 | Boyat kənd "Dördlər" ziyafət evi | 200 | |
| 6 | Aşağı Qaramanlı kənd Folklor evinin qarşısındakı ərazi | 3000 | 7 | Aşağı Qaramanlı kənd Folklor evi | 300 | |
| 7 | Kürkənd kəndi, Neftçala Peşə Məktəbinin tədris korpusunun ərazisi | 500 | 8 | Kürkənd kəndi, Neftçala Peşə Məktəbinin akt zalı | 80 | |
| 8 | Aşağı Surra kənd Folklor evinin qarşısındakı ərazi | 1000 | 9 | Aşağı Surra Folklor evi | 300 | |
| 9 | Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodunun qarşısındakı ərazi | 500 | 10 | Sübh kənd Kürağzı Nərə Balıq Yetişdirmə zavodunun iclas zalı | 100 | |
| | | | 11 | Yenikənd kəndi "Yenikənd balıq evi"nin ziyafət zalı | 80 | |
| 10 | Tatarməhlə kənd Diyarşunaslıq evinin qarşısındakı ərazi | 1000 | 12 | Tatarməhlə kənd Diyarşunaslıq evi | 150 | |
| 11 | Yuxarı Qaramanlı kənd klubunun qarşısındakı ərazi | 1500 | 13 | Yuxarı Qaramanlı kənd klubu | 100 | |
| 12 | Qaraqaşlı kənd Sənətkarlıq evinin qarşısındakı ərazi | 1500 | 14 | Qaraqaşlı kənd Sənətkarlıq evi | 70 | |
| 13 | Yeniqışlaq kənd klubunun qarşısındakı ərazi | 1500 | 15 | Yeniqışlaq kənd klubu | 100 | |
| 14 | Xəzər bələdiyyəsinin binasının qarşısındakı ərazi | 1500 | 16 | Xəzər kənd tam orta məktəbinin idman zalı | 150 | |
| 15 | Xol Qarabucaq kənd Folklor evinin qarşısındakı ərazi | 2000 | 17 | Xol Qarabucaq kənd Folklor evi | 200 | |
| 16 | Xol Qaraqaşlı kənd Folklor evinin qarşısındakı ərazi | 2000 | 18 | Xol Qaraqaşlı kənd Folklor evi | 200 | |
| 17 | Qırmızıkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi | 2000 | 19 | Qırmızıkənd kənd Mədəniyyət evi | 200 | |
| 18 | Qaçaqkənd kənd Mədəniyyət evinin qarşısındakı ərazi | 1500 | 18 | Qaçaqkənd kənd Sudan istifadəedənlər Birliyinin iclas zalı | 100 | |



3← xalqın yaddaşında respublikamızda nəinki iqtisadi yüksəliş, eyni zamanda quruculuq, abadlaşdırma, yeni yaşayış məskənlərinin tikilməsi, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və məişət mədəniyyətinin yüksəldilməsi dövrü kimi qalıb. Həmin illərdə istər kənd yerlərində, istərsə də şəhərlərdə əhalinin xeyli hissəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb, yeni yaşayış massivləri tikilib, fərdi evlərin sayı çoxalıb, insanların maddi rifahı xeyli yüksəldilib. RİH- in başçısı qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi və düşünülmüş siyasəti, bacarlqlı hərb səriştəsi, sərkərdə qüdrətilə Azərbaycanın ərazi bütövlüyünün 44 günlük Vətən müharibəsində, 2023-cü ilin sentyabr ayında keçirilən lokal antiterror tədbirlərilə təmin olunması ən yüksək pillədə tamamlandı. Bu Ulu Öndər yadigarı müstəqil Azərbaycan Respublikasıdır.

Tədbir Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarxın nümayişilə davam edib.

RUHU ŞAD OLSUN, ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN.

***"Gündoğar"***

# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI, HADRUT FATEHİ CAMAL VİDADİ OĞLU İSMAYILOVUN 40 İLLİK YUBİLEYİ EHTİRAMLA QEYD OLUNDU






Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Vətən Müharibəsi Qəhrəmanı şəhid Camal İsmayılovun anadan olmasının 40 illik yubileyi qeyd olunub. Şəhid baş gizir Camal İsmayılovun Şəhidlər Xiyabanında məzarı ziyarət olunub və ruhuna dualar oxunub.

Tədbirdə Neftçala RİH-in Başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının sədri, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, döyüşçü yoldaşları və qazilər iştirak ediblər. Tədbir Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Tədbirdə çıxış edən şəhidin anası Filarə İsmayılova, şəhid Raquf Orucovun həyat yoldaşı, "Zəfər" şəhid ailələrinə dəstək İB-nin sədri Sevinc Orucova, Xalq şairi Sabir Rüstəmxanlı, şəhid "Əfsanəvi taborun" valideynləri, şəhid Mahmud Məlikovun atası Təhmasib Məlikov və digər natiqlər Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbədən və bu qələbəmizdə iştirak edən şəhid Camal İsmayılovun şücaətindən, onun keçdiyi döyüş yolundan və 2020-ci ilin sentyabrın 27-də düşmənin törətdiyi təxribata qarşı əks-hücumla başlanan Vətən müharibəsində Camal İsmayılovun vətən uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalması haqqında danışıblar.Tədbirdə Vətən Müharibəsi Qəhrəmanının həyatını əks etdirən videoçarx nümayiş olunub.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxış edərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi və Azərbaycan ordusunun gücü ilə 44 günlük Vətən Müharibəsində qazanılan şanlı qələbəsindən, 2023-cü ilin sentyabr ayında keçirilən lokal antiterror əməliyyatları ilə ölkəmizin suverenliyinin tam bərpa edilməsindən və bu döyüşlər zamanı, şəhid və qazilərimizin şücaətindən, qəhrəmanlıqlarından, işğaldan azad olunan ərazilərdə aparılan abadlıq quruculuq işlərindən və sakinlərimizin öz doğma torpaqlarına köçürülməsindən bəhs edib. Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov qəhrəman gənclərimizin vətən uğrunda göstərdiyi fədakarlıqları dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini, ailələrinin dövlətin diqqət və qayğısı ilə əhatə olunmasını qeyd edib.

Tədbir Neftçala şəhər Camal İsmayılov adına Uşaq İncəsənət məktəbinin hazırladıqları kompozisiyalar ilə davam edib.

*"GÜNDOĞAR"*

# İTKİN ŞƏHİDİMİZ DOĞMA KƏNDİNDƏ DƏFN OLUNDU







Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən şəhid Kərimov Yaşar Ələkbər oğlu dünyaya gəldiyi Neftçala rayonunun Aşağı Qaramanlı kəndində dəfn olunub.

18 iyul 2024-cü il tarixində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhid Kərimov Yaşar Ələkbər oğlu ailəsinin yaşadığı Aşağı Qaramanlı kəndində vida mərasimi keçirilib. Vida mərasimindən sonra şəhid Aşağı Qaramanlı kənd qəbiristanlığında Müdafiə Nazirliyinin təşkilatçılığı ilə yaylım atəşi və orkestrın ifasında Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin ruhuna dualar oxunub, məzarına güllər düzülüb, əklil qoyulub. Onun tabutuna bükülmüş Azərbaycanın üçrəngli Bayrağı şəhidin oğlu Elmir Kərimova təqdim edilib.

Mərasimdə şəhidin ailə üzvləri ilə yanaşı Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov, hüquq-mühafizə orqanlarının rəhbərləri, Müdafiə Nazirliyinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri, şəhidin döyüş yoldaşları, rayon sakinləri, şəhid ailələri, qazilər, media nümayəndələri iştirak ediblər. Qeyd edək ki, şəhid Yaşar Kərimov 1967-ci ildə Neftçala rayonunda anadan olub.1993-cü ilin iyul ayının 23-də Ağdam rayonu Şelli kəndi uğrunda gedən döyüşlərdə itkin düşüb. Allah rəhmət eləsin. Məkanı behişt olsun.

Allah səbir versin doğmalarına.



# SƏN DƏ QOŞUL!

Neftçala Rayon İcra Hakimiyyətinin və Ekologiya Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamına uyğun olaraq Neftçala rayonunda Xəzər dənizinin sahil boyu ərazisində məişət tullantılarından təmizlənməsi istiqamətində aksiya keçirilib.

Aksiyada RİH-in, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin məsul şəxsləri, könüllülər və rayon ictimaiyyəti iştirak edib. Aksiyanın keçirilməsində məqsəd Xəzər dənizi sahili ərazilərinin, dəniz suyunun məişət və digər tullantılarla çirkləndirilməsinin qarşısının alınması, əhalinin tullantıların düzgün idarə olunması ilə ətraf mühitin neqativ təsirlərdən qorunması istiqamətində maarifləndirilməsi, Xəzər dənizinin sahil zonalarında ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu və bu sahədə ictimaiyyətlə əməkdaşlığı artırmaqdır. Bu məqsədlə həyata keçirilən bütün işlər cəmiyyətimizin qorunmasına xidmətdir.



# Milli mətbuatımız öz tarixi missiyasını davam etdirir

**Ulu öndər Heydər Əliyev: "Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir. Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir".**

Bu gün Azərbaycan milli mətbuatının yaranmasından 149 il ötür. Ölkədə ilk mətbu orqanın - əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin nəşrə başladığı 22 iyul tarixi 1991-ci ildən Azərbaycanda Milli Mətbuat günü kimi qeyd olunur. "Əkinçi" qəzetinin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının yaranmasında və təşəkkül tapmasında əvəzsiz rolu olub. Qəzet xalqımızın milli oyanışında, milli birliyinin möhkəmlənməsində böyük əhəmiyyət daşıyıb.

O vaxtdan müxtəlif tənəzzül və intibah dövrləri yaşayan Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü funksiyasını yerinə yetirməkdə davam edib. Sovet hakimiyyəti dönəmində ciddi senzura ilə qarşılaşan milli mətbuatımız ötən əsrin 80-ci illərindən başlayaraq azad və demokratik mətbuat missiyasının, insanların düşüncə və sözlərinə hörmətin, yeniləşən informasiya vasitəsilə operativ məlumatlandırmanın, plüralizm və tolerantlıq ideyalarının daşıyıcısına çevrilməyə başlayıb. Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, Azərbaycan mətbuatı milli varlığını qoruyub saxlamağı bacarıb, respublikanın ictimai-siyasi həyatında fəal şəkildə təmsil olunub. Məhz bu dövrdə ölkədə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır.

Müstəqilliyin ilk illərindən başlayaraq mətbuatın inkişafı ölkəmizin dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və mətbuatın davamlı inkişafı, mətbuat və söz plüralizmi hər zaman təmin olunur. Azərbaycan müstəqillik qazandıqdan qısa bir müddət sonra, Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsi ilə Azərbaycan mətbuatının inkişafında yeni bir mərhələ başlanmış və kütləvi informasiya vasitələrinin rasionallığının artırılmasında ciddi addımlar atılmışdır.

Son 20 ildə Heydər Əliyev siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev cəmiyyət həyatında mətbuatın rolunu yüksək dəyərləndirərək bildirir ki, hüquqi dövləti mətbuatsız təsəvvür etmək qeyri-mümkündür. Bu baxımdan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamları əsasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi, onlarla jurnalistin fəxri adlar və "Tərəqqi" medalı ilə təltif edilməsi, mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi milli mətbuatın inkişafına ali diqqətin bir neçə nümunəsidir. Mütərəqqi islahatların davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyi ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, yenilikçi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi illərində həyata keçirdiyi çoxşaxəli islahatların və onların möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Təsadüfi deyil ki, hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib.

Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib, Azərbaycanın böyük Zəfərinin müjdəçisi olub. Zəfərə gedən yolu yaxılnaşdıran milli mətbuatımız 30 il ərzində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə bütün resursları ilə səfərbər olmağı bacarıb. Qırx dörd günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti böyük oldu. Məhz nümayiş olunan peşəkarlıq, fədakarlıq və çeviklik sayəsində dünya ictimaiyyətinə müharibə ilə



əlaqədar, o cümlədən Ermənistanın törətdiyi müharibə cinayətləri haqqında dolğun məlumatların çatdırılması mümkün oldu. Bu işlərin həyata keçirilməsində ən böyük missiyanı Ali Baş Komandanın özü reallaşdırdı. Onun Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumlarına geniş müsahibələri bu reallıqların dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Hər zaman Azərbaycan həqiqətlərinin təbliği missiyasını uğurla həyata keçirən mətbuatımızın 44 günlük Vətən müharibəsinin gedişində ölkəmizin düşmən təbliğatına qarşı informasiya mübarizəsinə töhfələrini verdiyi kimi, postmüharibə dövründə də bu işi davam etdirməkdədir. Azərbaycan mediası bu gün də dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi hər bir fikrin, hər bir bəyanatın, işğaldan azad edilmiş ərazilərimizdəki vəziyyət barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır.

Müasir dövrümüzdə fasiləsiz davam edən informasiya müharibəsində mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqlənirlər. Azərbaycan jurnalistləri bu gün də iş başındadır və haqq işimiz uğrunda mübarizəni qətiyyətlə davam etdirirlər.

**Fərhad Baxışov,**
**YAP Neftçala rayon təşkilatının əməkdaşı**

# Neftçala rayonunda növbəti qanvermə aksiyası keçirilib

TƏBİB-in tabeliyində fəaliyyət göstərən "Neftçala Rayon Mərkəzi Xəstəxanası" Publik hüquqi şəxsində 22.07.2024-cü il tarixdə "Qan Ver, Yaşat" şüarı altında növbəti qanvermə aksiyası keçirilib. Aksiya Neftçala Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşəbbüsü və "Neftçala Rayon Mərkəzi Xəstəxanası" Publik hüquqi şəxsinin təşkilatçılığı ilə baş tutub.



Aksiyada Neftçala rayonu ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatların və eləcədə ictimaiyyətin nümayəndələri iştirak edib. Respublika Mərkəzi Qan Bankının tibb işçiləri tərəfindən əvvəlcə sağlamlıq imkanları dəyərləndirilən donorlar müəyyən olunub. Toplanan qan ehtiyatı talassemiya, hemofiliya və leykoz xəstəliyindən əziyyət çəkən xəstələr üçün istifadə olunacaq.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "MƏTBUAT - DÖVLƏT VƏ CƏMİYYƏT ARASINDA CANLI SİNİRDİR!"







## NEFTÇALA RAYONUNDA MİLLİ MƏTBUATIMIZIN YARANMASININ 149 - CU İLDÖNÜMÜ QEYD OLUNDU

**22 iyul 2024-cü il tarixdə Neftçala Rayon İcra Hakimiyyətinin təşəbbüsü, "Gündoğar" rayon qəzetinin və rayon Mərkəzi kitabxanasının təşkilatçılığı ilə Neftçalada Milli Mətbuatımızın yaranmasının 149 - cu ildönümü münasibətilə ümumrayon tədbiri keçirildi.**

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin, "Gündoğar" rayon qəzetinin, uzun müddət jurnalistika sahəsində çalışmış veteran mətbuat işçiləri, ziyalılar, şairlər, yazarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzüblər. Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda qəhrəmancasına şəhid olan hərbi qulluqçuların, vəfat edən mətbuat işçilərinin əziz xatirəsi ehtiramla yad edildi.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən, şöbə müdirinin müavini Vasif Əliyev Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidovun rayonumuzun mətbuat işçilərinə olan təbrikini oxudu, bu sahədə xidməti olan mətbuat işçilərini təbrik etdi.

Çıxış edən natiqlər - "Gündoğar" rayon qəzetinin baş redaktoru Bədirə Niftaliyeva, uzun müddət mətbuat sahəsində çalışan veteran mətbuat işçiləri ndən Əlövsət Əliyev, Tarverdi Hüseynov, Həqiqət Sərdarova, Cahangir Abdullayev və b. Milli Mətbuatımızın 149 - illik zəngin və şərəfli yoluna nəzər salaraq ölkəmizdə bu sahədə, xüsusilə, müstəqillik illərində mətbuat sahəsinə olan diqqəti vurğulayaraq görülən işlərə , diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya media nümayəndələri adından minnətdarlıqlarını bildiriblər.

Tədbirdə "22 İyul-Milli Mətbuat Günü " münasibətilə və rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyinə görə "Gündoğar" rayon qəzetinin baş redaktoru Bədirə Niftaliyevaya Neftçala Rayon İcra Hakimiyyəti Başçısının təşəkkürnaməsi təqdim edilib.

## *DÜŞÜNCƏNİN İŞIĞINDA GƏLƏN ZAMAN AYDINLANSIN...*

## "Mən desəm, yanlış olar, babam, gəl, sən özün oyat...

**Azərbaycan dilində nəşr olunan ilk milli qəzet -- "ƏKİNÇİ"**

**Əkinçi qəzetinin yaranması Görkəmli maarifçi Həsən bəy Zərdabinin adı ilə bağlıdır. O, qəzetin nəşrinə böyük çətinliklə icazə almış, İstanbuldan ərəb qrafikalı mətbəə şriftləri gətirtmişdir. Qəzetin ilk nömrəsi onun redaktorluğu ilə 1875-ci il iyulun 22-də Bakıda qubernator mətbəəsində nəşr edilir və bununla da Milli mətbuatımızın əsası qoyulur. Ayda iki dəfə 300-400 tirajla nəşr edilən "Əkinçi" qəzetində Moskvadan Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani, Şamaxıdan Seyid Əzim Şirvani və Məhəmmədtağı Əlizadə Şirvani, Dərbənddən Heydəri və Tiflisdən Mirzə Fətəli Axundovun məqalə və digər yazıları dərc olunurdu.**



**1877-ci ildə Rusiya-Türkiyə müharibəsi başladığı zaman arxa cəbhədə "türk-tatar" dilində qəzetin mövcudluğundan ehtiyat edən Bakı qubernatoru həmin il sentyabrın 29-da "Əkinçi"nin nəşrinə rəsmən qadağa qoyur. Qəzetin ümumilikdə 56 sayı işıq üzü görür. İlk milli mətbu orqanı olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - iyulun 22-si Azərbaycanda "Mətbuat Günü" kimi qeyd edilir. Həsən bəy yazırdı: "Hər kəsi çağırıram - gəlməyir, göstərirəm - görməyir, deyirəm - qanmayır. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru sözlər yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Axırda o bənd ki, suyun qabağını kəsmişdi və suyu axmağa qoymurdu, rəxnə tapar və su mürur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar".**

## *BİZ HƏR KƏS ÜÇÜN YAZMIRIQ, BİZ BİZİ BİLƏN KƏSLƏR ÜÇÜN YAŞADIRIQ!*

Ürəyim çox dolubdu, yazımmı, baba, bilmirəm necə olar? Amma bu yol sənin yolundu, işığındı, sən kimi fədakarlar izidi. Bir azca dərdləşmək də keçdi ürəyimdən bu yubiley ilində. Deyir uzaqdan baxan deyər nə asandı mübarizə. Ona deyən gərəkdir ki, sən gəl, bir də bunun içində ol, dəridən, qabıqdan çıx. Gah həyət süpür, gah da ki, mühasibatlıq işləri apar. Gah məqalə hazırla, gah da ki, qəzetin çapdan çıxan camalının gözəlliyini düşün. Hə, baba, çox düşüncələr surətdən qaynaqlanır axı... Necə baxmayaq surətə, qəzetimiz hər istiqamətdə gözəl olmalıdır deyə, çox çaba göstərdim. Olmayır ki, olmayır. Gah vergi borcundan qaralır, gah sevməyənlər üzündən daralır... Bu da keçər, - deyib, yola davam edirik. Sənin fədakarlıq eşqin dolub ürəyimə. Necə də ağır imiş... Bunu duyan yox. Ürəyim ən kövrək guşəsində göz dikib yollara. Bir gün görüşəcəyimiz an olarsa, onda nə qədər deyəcəklərim varsa ... elə hamsını onda nəql edərəm, mənim işıqı babam.

Elə yol saldın ki....Elə işıq yaratdın ki, indi hər kəs "qəzetçi" dir...

Və daha məqsədli qəzetçidirlər. Onların əksəriyyətinin daşıdığı məqsəd 149 il boyunca çox dəyişib. Dəyişən məqsədlər çox rəngarəngdir. İçində Sizin kimi vətən ruhlu olanlar olsa da, bayağılıq da öz inkişafında, nizamındadır. Nə etməli? Gül içrə tikan olmazmı...? Ruhun şad olsun. Tanrı verən ruh çirkabdan uzaqsa, kökünə sadiq olaraq yaşayacaq, ömrünü bitirəcəkdir ləyaqətlə. Biz, bizi qoynunda daşıyan torpaq üçün yaşarıq, şəhidlər kimi. Onların fədakarlığından yol alarıq cəsurlar kimi. Qəzetimizi yaşatmaq üçün lazım olarsa bütün ictimai - kütləvi çağırışlardan yaraq-yasaq edəcəm, nəfəsimin gücü yetənə kimi... Ruhun şad olsun...

*"Gündoğar"dan ehtiramla...*

İki ilə 56 nömrəsi çap olunan "Əkinçi" qəzetindən sonra ard-arda yeni-yeni qəzetlər, jurnallar çıxmağa başladı: 1879-cu ildə Hacı Səid Əfəndinin "Ziyayi-Qafqaziyyə" qəzeti, 1883-cü ildə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən Cəlal Ünsizadənin "Kəşkül" jurnal-qəzeti, 1903-cü ildə Məmmədağa Şaxtaxtinskinin "Şərqi-rus" qəzeti, 1906-cı ildə Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalı. 1918-ci ildə Şərqin ilk demokratik respublikası - Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Öz müstəqilliyini, siyasətini, azadlığını, hüquqlarını, iqtisadiyyatını, ictimai-siyasi proseslərə münasibətini nümayiş etdirmək üçün AXC dövründə mətbuat yenidən dirçəldi. Üzeyir Hacıbəyovun redaktorluğu ilə "Azərbaycan" qəzeti işıq üzü gördü. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində mətbuat orqanlarında qadın hüquqlarından da bəhs edilirdi.

**Ümummilli Lider Heydər Əliyev KİV-in inkişafına daim diqqət yetirirdi. 1997-ci il 22 iyul tarixdə Milli Mətbuat Günü münasibətilə Heydər Əliyev çıxışında demişdir: "Jurnalist əməyi qeyri-adi, böyük zəhmət, xüsusi səy tələb edən əməkdir. Dövlət onların əməyini qiymətləndirir, bu sahədə mövcud olan problemləri həll etmək üçün əlindən gələn hər şeyi edir və bundan sonra da edəcəkdir".**

# MƏQSƏDİ ZƏHMƏTİNDƏN GÜC ALAN BİRİNCİLƏR -- TƏBRİK EDİRİK!




**Azərbaycan cüdoçusu Hidayət Heydərov Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının qazandığı qələbə hər birimizi sevindirdi. 73 kq çəki dərəcəsində yer alan idmançı finalda fransalı Con Benjamin Qabana qalib gəkərək olimpiadanın qızıl medalını qazandı.Və bu qələbə hər bir soydaşımızı qürurlandırdı.**

**Yarışmaya 1/8 finaldan başlayan Hidayət bu mərhələdə Tohar Butbula (İsrail) qalib gəlib. O, 1/4 finalda Artur Margelidondan (Kanada), yarımfinalda isə Akil Qyakovadan (Kosovo) güclü olub. Bu, Hidayət Heydərovun karyerasında ilk iştirak etdiyi olimpiada olub.**

"Gündoğar" qəzeti Yenisabah.az-a istinad edərək 2024-cü il Yay Olimpiya Oyunlarının ilk medalını qazanan Hidayət Heydərov haqqında məlumatı oxucuların diqqətinə çatdırır.

Hidayət Heydərov 27 iyul 1997- ci ildə Qazaxıstan Respublikasının Karaqanda şəhərində dünyaya gəlib. Onun ailəsi əslən Göyçayın Alxasava kəndindəndir. Hidayət 3 yaşında olarkən ailəsi Bakıya köçüb. Atası Hidayət 6 yaşında olarkən, dostlarının da məsləhətilə onu "Neftçilər" metrostansiyasının yaxınlığına yerləşən Cüdo məktəbinə yazdırır. Atası bu yolla oğlunun daha dayanıqlı olmasını, hücumlardan özünü qorumasını istəyirdi. Hidayətin ilk müəllimi Tərlan Həsənov olub. O, hələ də ilk məşqçisiylə çalışır. Millidə məşqçisi isə Mehman Əzizovdur. 2012-ci ildə kadetlər arasında Azərbaycan çempionatında bürünc medal qazanıb. 2013-cü ildə kadetlər arasında Avropa və böyüklər arasında Azərbaycan çempionu olub. 2014-cü ildə Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən kadetlər arasında Avropa birinciliyində 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov portuqaliyalı David Reisə, israilli Oran Ginerə, gürcüstanlı Beka Udesianiyə və isveçrəli Naim Matta qalib gələrək finala yüksəlib. Həlledici görüşdə Rusiya cüdoçusu İsmayıl Çasiqovdan üstün olan Heydərov bir il əvvəl olduğu kimi, yenə də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 2015-ci ildə BƏƏ-nin Əbu-Dabi şəhərində gənc cüdoçular arasında keçirilən dünya çempionatında yalnız bir görüşdə məğlub olaraq bürünc medal qazanıb. 2017-ci ildə Polşanın paytaxtı Varşava şəhərində keçirilən Avropa çempionatında iştirak edən Hidayət Heydərov mübarizəyə 1/16 final mərhələsindən başlayıb. O, ispaniyalı Xavyer Ramires, türkiyəli Həsən Vanlıoğlu, isveçli Tommi Masyak və macarıstanlı Mikloş Unqvarini yendikdən sonra finala çıxıb. Həlledici görüşdə o, rusiyalı Musa Moquşkova qızıl xalla qalib gələrək, Avropa çempionu olub.

23 aprel 2017-ci ildə Avropanın **"Ən yaxşı gənc cüdoçu"su** mükafatına layiq görülüb. 13 may 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında 73 kq çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov finalda azərbaycanlı Rüstəm Orucovu üstələyərək qızıl medala yiyələn cüdoçu olub. 2022-ci ilin fevralında Təl-Əviv Böyük Dəbilqəsinin qalibi olur. Həmin ilin aprelində beş illik aradan sonra Bolqarıstanın paytaxtı Sofiyada ikinci dəfə Avropa çempionatının qızıl medalını qazanır. Hidayət Heydərov hələ kiçik vaxtlarından döyüş idman növləri ilə yanaşı, futbola da maraq göstərib. O, uşaq yaşlarından "Mançester Yunayted" futbol klubunun qatı azarkeşi olub. Hidayət boş vaxtlarında futbol və basketbol oynamağı sevir.

Ailəlidir, həyat yoldaşı Leyla Şahin tanınmış blogerdir.




Parisdə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycanı təmsil edən cüdoçu Zelim Kotsoyev final görüşünə çıxıb.

100 kq çəki dərəcəsində onun finaldakı rəqibi gürcü cüdoçu İlya Sulamanidze olub.

Gərgin keçən dueldə Kotsoyev rəqibinə qalib gələrək Olimpiadanın qızıl medalını qazanıb.

"Gündoğar" qəzeti KONKRET.az istinad edərək bildirir ki, Zelim Kotsoyev 9 avqust 1998-ci ildə Şimali Osetiyanın Beslan şəhərində anadan olub.

O, ilk qələbəsinə 2013-cü ilin iyununda Estoniyanın Tallin şəhərində baş tutan U-18 Avropa Çempionatında qazanıb. Zelim Kotsoyev həmin turniri bürünc medalla başa vurdu. İdmançı bir il sonra, 2014-cü ilin iyulunda Yunanıstanın Afina şəhərində baş tutan U-18 Avropa Çempionatında bütün rəqibləri üzərində qələbə qazanaraq turnirin qalibi oldu. Daha sonra, 2015-ci ildə sərbəst güləş üzrə Azərbaycan yığmasının lideri, əslən Şimali Osetiyadan olan Xetaq Qazyumovun məsləhətinə əsasən Zelim Kotsoyev cüdo üzrə Azərbaycan yığmasının heyətinə cəlb edilib. 2015-ci ilin iyulunda Zelim Kotsoyev Azərbaycan bayrağı altında Bolqarıstanın Sofiya şəhərində baş tutan U-18 Avropa Çempionatında turnirin qızıl medalına sahib olub. Kotsayev həmin ilin avqustunda həm də Bosniya və Herseqovinanın Sarayevo şəhərində baş tutan gənclər arasında Dünya Çempionatını gümüş medalla başa vurub. Zelim Kotsoyev IJF Qran-Pri seriyalı beynəlxalq turnirlərdə birinci qələbəsinə 2016-cı ilin iyulunda Monqolustanda baş tutan Ulan-Bator Qran-Prisində qızıl medal qazanmaqla imza atıb. O, 2017-ci ildə Tayvanda baş tutan Universiada Oyunlarının, Maribor şəhərində (Sloveniya) baş tutan gənclər arasında Avropa Çempionatının və Zaqreb şəhərində (Xorvatiya) baş tutan gənclər arasında Dünya Çempionatında qızıl medalların sahibi olub. Z.Kotsoyev 2018-ci ilin aprelində Antalya şəhərində IJF Antalya Qran-Prisinin qalibi olub. Həmin ay İsrailin Təl-Əviv şəhərində baş tutan Avropa Çempionatında isə Zelim Kotsoyev bürünc medalın sahibi olub. Daha sonra, 2019-cu ildə Avropa Oyunları və Dünya Çempionatında uğursuz çıxış edən idmançı il ərzində IJF Qran-Pri və Grand Slam seriyalı beynəlxalq turnirlərdə 2 gümüş və 2 bürünc medala sahib oldu. 2023-cü il də Zelim Kotsoyev üçün uğurlu mövsüm oldu. Fransa, İsrail və Azərbaycanda baş tutan IJF Grand Slam beynəlxalq turnirlərində 1 qızıl və 2 bürünc medala sahib olan Zəlim Kotsoyev mayda Qətərin Doha şəhərində baş tutan Dünya Çempionatını bürünc medalla başa vurub. O, noyabr ayında Fransanın Monpelye şəhərində baş tutan Avropa Çempionatında bütün rəqibləri üzərində qələbə qazanaraq Avropa Çempionatının qızıl medalına sahib oldu. Zelim Kotsoyev son olaraq, 2024-cü ilin mayında BƏƏ-nin Əbu-Dabi şəhərində baş tutan Dünya Çempionatında bütün rəqibləri üzərində qələbə qazanaraq Dünya çempionu olub. Nəticədə çempion idmançımız IJF olimpiya reytinq cədvəlində mövqeyini yaxşılaşdırdı və olimpiya lisenziyasına sahib olub.




## TƏBRİK EDİRİK

... Dünya, nə böyük xislətin varmış,
Süfrəsi diz üstə olanlar varmış,
Yeyib-içdiyini dananlar varmış,
Yadlar yaxından da doğma olarmış.

Keşməkeş yolların sayı bilinməz,
Ötən pis günlərin sayı bilinməz,
Kimlərsə sevinər, kimlərsə gülməz,
Zülm edənlərin xisləti də bilinməz...

Yaxin günlərdə həmyerlimiz Nazilə Gözəlovanın "Dünya mənim deyənlər..." adlı ilk şeirlər kitabı çap olunub. Nazilə Ədilağa qızı Gözəlova 1964 - cü ildə Neftçala rayonunun Mayak kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində almışdır.1983-cü ildən bu günə qədər Neftçala rayon Mədəniyyət Mərkəzinin 2 saylı klubunun müdiri vəzifəsində çalışır, mədəni-kütləvi tədbirlərin təşkilində yaxından iştirak edir. Gənclik illərindən şeirlər yazan Nazilə Gözəlovanın ilk kitabı yəqin ki, oxucular üçün maraqlı olacaqdır. Qeyd edək ki, Nazilə Güzəlova ailəlidir, 3 övladı. 4 nəvəsi var.

Nazilə xanımı ilk kitabının çap edilməsi münasibətilə təbrik edirik. Ona bütün fəaliyyətində uğurlar, bütün doğmaları ilə birlikdə can sağlığı diləyirik.

## E L A N

***Bildirilir ki,Vətən müharibəsi şəhidi Rauf Süleymanovun anası Sucahət Beydulla qızı Süleymanovaya verilmiş "Şəhid Anası" vəsiqəsi itmişdir. Vəsiqəni tapan şəxslərdən redaksiyamızla əlaqə saxlanılması xahiş olunur.***

## E L A N

***Bildirilir ki, vətəndaş İbrahimova Nigar Pirverdi qızına verilmiş Bakı şəhəri, Seyid Əzim Şirvani küçəsi 4 C, mənzil 55 (Elma MTK) ünvanında yerləşən şəxsi mülkiyyətin müqaviləsi itdiyi üçün etibarsız sayılır.***

*Baş redaktor*
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250